

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 128 (21.029)

8 iyul 2014-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika

İyulun 7-də Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin beşinci müşavirəsi keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müşavirədə iştirak etmişdir.

Prezident İlham Əliyev müşavirədə nitq söylədi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də Gürcüstan Parlamentinin sədri David Usupaşvilinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də NATO Dəstək Agentliyinin baş meneceri Mayk Laydeni qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə NATO arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı. Azərbaycan Respublikası Prezidentinin NATO-nun baş qərargahına son səfəri və səfər zamanı keçirdiyi görüşlərin əlaqələrimizin inkişafı baxımından önəmi qeyd edildi, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də Avropa Xalq Partiyasının və Mərkəzçi Demokratlar İnternasionalının baş katibi Antonio-Lopez İsturizi qəbul etmişdir.



## R.G.Məmmədova “Əməkdar dövlət qulluqçusu” fəxri adının verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Ramiz Gülməmməd oğlu Məmmədova **“Əməkdar dövlət qulluqçusu”** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 7 iyul 2014-cü il*

## “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” nişanı ilə təltif haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanın Naxçıvan Muxtar Respublikasının tarixinin araşdırılmasında xidmətlərinə görə Atnur İbrahim Ethem Ekrem oğlu **“Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə”** nişanı ilə təltif edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 5 iyul 2014-cü il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



İyulun 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov “Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir” beynəlxalq elmi konfransında iştirak etmək üçün muxtar respublikada səfərdə olan türkiyəli tarixçi-alim, professor İbrahim Ethem Atnur ilə görüşmüşdür.

Ali Məclisin Sədri qonağı salamlamış, İbrahim Ethem Atnurun Naxçıvanın muxtariyyət tarixinin araşdırılması sahəsindəki fəaliyyətini yüksək qiymətləndirmiş, alimin yazdığı kitabların Naxçıvanın 1918-1921-ci illər tarixinin öyrənilməsi və gələcək nəsillərə çatdırılması baxımından dəyərli elmi mənbələr olduğunu diqqətə çatdırmışdır.

Ali Məclisin Sədri Naxçıvan tarixinin araşdırılması sahəsindəki səmərəli fəaliyyətinə görə İbrahim Ethem Atnura təşəkkür etmiş və onun “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” nişanı ilə təltif edildiyini bildirmişdir.

İbrahim Ethem Atnur muxtar respublikada bütün sahələrin, o cümlədən elmin inkişafı istiqamətində ardıcıl tədbirlər görüldüyünü bildirmişdir. Alim Naxçıvan tarixinin araşdırılması sahəsindəki fəaliyyətini bundan sonra da davam etdirəcəyini vurğulamış, “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” nişanı ilə təltif olunmasının onun üçün xüsusi əhəmiyyət daşıdığını qeyd etmiş, əməyinin belə yüksək qiymətləndirilməsinə görə minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” nişanını və vəsiqəsini İbrahim Ethem Atnura təqdim etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan şəhərində çimərlik – istirahət mərkəzi istifadəyə verilmişdir





İyulun 7-də Uzunoba Su Anbarında yeni istirahət mərkəzi – Naxçıvan şəhər çimərliyi istifadəyə verilmişdir.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov tədbirdə çıxış edərək demişdir ki, bu gün Naxçıvan şəhərində aparılan quruculuq işləri bütün sahələri əhatə etmişdir. Hazırda şəhərdə 5 səhiyyə, 9 mədəniyyət, 6 təhsil, 5 inzibati və 5 yaşayış obyektində tikinti və yenidənqurma işləri davam etdirilir. Şəhər infrastrukturunun inkişafı ilə yanaşı, insanların sağlamlıqlarının qorunması və istirahətinin səmərəli təşkili də diqqət mərkəzində saxlanılır. Bu gün yeni çimərliyin istifadəyə verilməsi bu sahədə həyata keçirilən tədbirlərin davamı olmaqla yanaşı, həm də insan amilinə verilən qiymətin daha bir ifadəsidir. Vüqar Səfərov yaradılan şəraitə görə Naxçıvan şəhər sakinləri adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhər çimərliyinin istifadəyə verilməsi münasibətilə tədbir iştirakçılarını təbrik etmiş, burada şəhər sakinlərinin və muxtar respublikaya gələn qonaqların istirahətinin səmərəli təşkil olunacağını bildirərək demişdir: “Ölkəmizin iqtisadi inkişafı insanların rifah halının və məişət şəraitlərinin yaxşılaşmasına səbəb olmuşdur. İqtisadi inkişaf və bununla yanaşı sosial problemlərin həlli həm də insanların istirahətlərinin səmərəli təşkilinə ictimai tələbatı artırmışdır.

Ardı 2-ci səhifədə





Bu baxımdan yeni istirahət mərkəzlərinin yaradılması zərurətə çevrilmişdir”.

Ali Məclisin Sədri demişdir: “Muxtar respublikada insanların yaşayış şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Tikinti materiallarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi, avtomobillərin kredit yolu ilə satışının təşkil edilməsi insanların mənzil və avtomobil təminatına hərtərəfli şərait yaratmışdır. Son illər Naxçıvan şəhərinin ətrafında yaradılan istirahət mərkəzləri isə sakinlərin və gələn qonaqların asudə vaxtının səmərəli təşkilinə imkan verir. Bu gün istifadəyə verilən yeni çimərlik də yay-istirahət zonası kimi şəhər sakinlərinin və gənclərin asudə vaxtının səmərəli təşkilinə, onların sağlamlıqlarının qorunmasına xidmət edəcəkdir”.

Ali Məclisin Sədri çimərlik-istirahət zonasından səmərəli istifadə olunması barədə aidiyyəti orqanlara tapşırıqlar verərək demişdir: “Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi muxtar respublikada fəaliyyət göstərən idman federasiyaları ilə birlikdə çimərlik-istirahət zonasında su və digər idman növləri üzrə yarışların keçirilməsini, eləcə də gənclərin iştirakı ilə müxtəlif tədbirlərin təşkilini diqqət mərkəzində saxlamalıdır. Burada yaradılan şərait və göstərilən xidmət gənclərin asudə vaxtının təşkili ilə yanaşı, onların qarşılıqlı dostluq münasibətlərinin yaranmasına da xidmət edəcəkdir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi ərazidə yaşıllıqların artırılmasını, Nəqliyyat Nazirliyi çimərlik zonasına Naxçıvan şəhərindən avtobus xidmətinin göstərilməsini təmin etməlidir”.

Ali Məclisin Sədri çimərliyin yaradılmasında əməyi olanlara təşəkkürünü bildirmiş, açılışı bildirən lenti kəsmişdir.

Bildirilmişdir ki, ərazidə kompleks tikinti işləri görülmüş, Uzunoba Su Anbarı əsaslı şəkildə yenidən qurulmuşdur. Çimərliyin qumlu sahil xəttinin uzunluğu 280 metrdir. Böyüklər və uşaqlar üçün nəzərdə tutulan çimərlik iki hissədən ibarətdir. Böyüklərin istirahəti üçün ayrılan sahənin su hissəsinin dərinliyi 4 metrdir. Suyun üzərində çimərlik sərhədinin qurtardığını bildirən qadağanedici nişanlar qoyulmuşdur.

Çimərlik ərazisində insanların istirahət etməsi üçün lazımi şərait yaradılmışdır. Burada günlüklər, paltardəyişmə yerləri, duş kabinələri, futbol və voleybol meydançaları, eləcə də avtomobil dayanacağı yaradılmış, ictimai-iaşə xidməti təşkil olunmuşdur. Çimərliyə xidmət edən inzibati binada iş otağı, kafe, mətbəx, anbar və mağaza yerləşir. Su anbarının üzərində hər biri 20 kvadratmetr olan 3 istirahət köşkü və 15 metr uzunluğunda platforma quraşdırılmışdır. Burada su idman növləri ilə məşğul olmaq üçün də lazımi şərait yaradılmış, su velosipedləri və motosikletləri qoyulmuşdur. Qeyd olunmuşdur ki, çimərlikdə təhlükəsizlik tədbirləri də diqqətdə saxlanılmış, müşahidə qülləsi yaradılmış, xəbərdaredici və məlumatlandırıcı lövhələr vurulmuşdur. Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Sularda Xilasetmə Xidmətinin xilasedici qrupu ərazidə xidmət göstərir.

Ərazidə geniş abadlıq işləri aparılmış, 160 kilovolt-amper gücündə transformator yarımstansiyası və 38 ədəd işıqlandırma dirəyi quraşdırılmışdır. Çimərliyə gedən 2,2 kilometrlik yola asfalt örtük salınmış, 210 metr istinad divarı tikilmişdir.

Ali Məclisin Sədri çimərlik zonasında təhlükəsizlik qaydalarına əməl edilməsi və xidmətin nümunəvi təşkili barədə müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## 14 iyul – Azərbaycanın həyatında dönüş günü

### *Bu mövzuda tədbirlər keçirilib*



Dünən Naxçıvan Müəllimlər İnstitutunda “14 iyul – Azərbaycanın həyatında dönüş günü” mövzusunda keçirilən “Heydər Əliyev lektoriyası”nın növbəti məşğələsini giriş sözü ilə ali təhsil ocağının rektoru, professor Oruc Həsənli açmışdır. Bildirilmişdir ki, Azərbaycanın tərəqqi dövrünü əhatə edən bütöv bir inkişaf epoxası görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün Azərbaycanın iqtisadi, siyasi, elmi, hərbi, mədəni, ictimai və sosial sahələrdə sahib olduğu yüksək potensial ötən əsrin 70-80-ci illərində ulu öndər Heydər Əliyevin uzaqgörənliyi sayəsində yaradılmışdır.

“14 iyul – Azərbaycanın həyatında dönüş günü” mövzusunda çıxış edən tarix üzrə fəlsəfə doktoru, dosent Emin Şıxəliyev bildirmişdir ki, ötən əsrin 60-cı illərinin sonunda SSRİ-nin inzibati ərazi vahidlərindən biri olan Azərbaycanın istər sosial-iqtisadi, istərsə də ictimai-siyasi həyatında təşviş doğuran tam tənəzzül meyilləri müşahidə olunmaqda idi. Sovet İttifaqının tərkibinə daxil olan başqa müttəfiq respublikaların diqqəti cəlb edən fasiləsiz inkişafı fonunda Azərbaycanda cəmiyyət həyatının bütün sahələrində geriləmə müşahidə olunur, mənfi meyillər getdikcə daha dərin kök salır, respublikanın iqtisadi potensialının zəifləməsi xalqın milli-mənəvi birliyinə vurulan zərərdən heç də az olmayan təhlükəli miqyas alırdı.

Alimin sözlərinə görə, Azərbaycanın ictimai-siyasi həyatındakı böhran xalqın mənəvi-psixoloji durumuna da mənfi təsir göstərirdi, respublika rəhbərliyində kosmopolit əhval-ruhiyyə hökm sürürdü. Milli kadrların hazırlanması, milli dilin düşünülmüş şəkildə inkişafı və onun tətbiq, eləcə də tədqiq sahəsinin genişləndirilməsi, dövlət orqanlarında milli kadr potensialının artırılması istiqamətində heç bir ciddi addım atılmırdı. Siyasi amorfluq, təfəkkürdə və dövlətin idarə edilməsində durğunluq halları milli mənlik şüuruna, milli təfəkkürə və mentalitetə malik olan kadrlar yetişdirilməsinə ciddi əngəl idi. Lakin bu əngəllər xalqımızın böyük oğlu Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə aradan qalxdı. “Dahi rəhbərin 14 iyul 1969-cu ildə Azərbaycanın rəhbəri seçilməsi xalqımızın taleyində mühüm tarixi mərhələnin başlanğıcı oldu”, – deyən məruzəçi vurğulamışdır ki, ulu öndər hakimiyyətə gəldikdən sonra respublikada milli ruhun inkişafına, milli mənlik şüurunun və milli qürurun yüksəlişinə xidmət edən möhtəşəm tədbirlər həyata keçirilmiş, Azərbaycan keçmiş SSRİ-nin qabaqcıl, inkişaf etmiş respublikalarından birinə çevrilmişdir.

Sonra tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin həyatı və siyasi fəaliyyətindən bəhs edən filmə baxmışlar.

*Naxçıvan Tibb Kollecində “14 iyul – Azərbaycanın həyatında dönüş günü” mövzusunda “Heydər Əliyev lektoriyası”nın növbəti məşğələsi keçirilmişdir. Məşğələni giriş sözü ilə kollecin direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İlhamə Mustafayeva açmışdır.*



Tədbirdə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, tariximizə qızıl hərflərlə yazılmış 1969-cu ilin 14 iyul günündə hakimiyyətə gələn ulu öndər Heydər Əliyev Azərbaycanı böyük bir imperiyanın tərkibində milli varlığını itirməkdən qorumuş, mərkəzin siyasətini milli maraqlara tabe etdirərək ölkəmizi inkişaf yoluna çıxarmışdır. Həmin vaxt ümumi iqtisadi inkişaf səviyyəsinə görə Sovetlər Birliyində sonuncu yerdə olan, ittifaqın aqrar əlavəsi mərhələsini yaşayan respublikamızda ümummilli liderin rəhbərliyi ilə bütün sahələrdə inkişafa nail olunmuş, qısa vaxtda iqtisadiyyatın bütün sahələrində əldə olunan yüksək inkişaf tempi ölkəmizi qabaqcıl respublikalar sırasına çıxarmışdır.

Vurğulanmışdır ki, ölkəmizə quruculuq və inkişaf, tərəqqi bəxş edən Heydər Əliyev siyasi xətti 1993-cü ildə Azərbaycanı növbəti dəfə dağılmaq, məhv olmaq təhlükəsindən xilas etmiş, ölkəmizə əbədi müstəqillik qazandırmışdır. Həmin vaxt xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdan ümummilli lider ölkənin parçalanmaq məqamında, iqtisadiyyatın iflic vəziyyətində olduğu bir vaxtda müstəqil Azərbaycan dövlətini yaşatmış, onu yeni inkişaf mərhələsinə çıxarmışdır. Bu gün ulu öndərin izləri onun şah əsəri olan müstəqil Azərbaycanın hər yerində görünür. Heydər Əliyev yolu ilə gedərək günü-gündən inkişaf edən, tərəqqiyə qovuşan Azərbaycanda əldə olunan bütün uğurlarda, qazanılan bütün nailiyyətlərdə ümummilli liderimizin işi və əməlləri yaşayır.

Sonda ümummilli lider Heydər Əliyevin həyatı və siyasi fəaliyyətini əks etdirən sənədli film nümayiş olunmuşdur.

## Gənclər ordu sıralarına yola salınırlar

*“Azərbaycan Respublikası vətəndaşlarının 2014-cü il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2 iyun 2014-cü il tarixli Sərəncamına əsasən, dünən Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.*

Mərasimi giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, polkovnik Səxavət Salmanov açıb.



Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra xidmətin rəisi bildirib ki, ölkəmizdə ordu quruculuğuna göstərilən dövlət qayğısı Silahlı Qüvvələrimizin qüdrətlənməsinə səbəb olub. Bu gün Azərbaycanın güclü və qüdrətli ordusu vardır. Ordumuz istənilən anda işğal altında olan torpaqlarımızı azad etməyə qadirdir. Son illərdə orduya ayrılan xərclər, ordu quruculuğu sahəsində görülən işlər, hərbi sənaye kompleksinin inkişaf etdirilməsi, ordunun müasir əsaslarla komplektləşdirilməsi bunu deməyə əsas verir. Silahlı Qüvvələrin Naxçıvanda yerləşən hissələrində də bu gün yüksək şərait yaradıldığını diqqətə çatdıran Səxavət Salmanov onu da bildirib ki, görülən bu işlər çağırışyaşlı gənclərin hərbi hissələrdə nümunəvi xidmətinə imkan verib.

Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası sədrinin müavini Heydər Heydərov, Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini Elnur İsmayılov, gənclər və idman nazirinin müavini Mirməcid Seyidov çıxış edərək bu əlamətdar hadisə münasibətilə çağırışçıları və onların valideynlərini təbrik ediblər.

Valideyn Əli Quliyev ordu sıralarına yola düşən gənclərə xoş arzularını çatdırıb, övladının hərbi xidmətə yollanmasından böyük qürur hissi keçirdiyini deyib.

Çağırışçılar adından çıxış edən Sadiq Məmmədov Vətənə şərəflə xidmət edəcəklərinə, komandirlərinin tapşırıqlarını can-başla yerinə yetirəcəklərinə söz verib.

Həmin gün Şahbuz və Sədərək rayonlarında da gənclərin hərbi xidmətə yolasalma mərasimləri keçirilib.

**Xəbərlər şöbəsi**

# AMEA-nın prezidenti, akademik Akif Əlizadə: Naxçıvanda elmin inkişafı elə bir səviyyəyə çatıb ki, burada artıq elmi məktəblər yaranmaqdadır



***– "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" Beynəlxalq Konfransı artıq Naxçıvanda ənənə halını alan beynəlxalq səviyyəli elmi tədbirlərin növbətisidir. Belə elmi tədbirlərin keçirilməsi üçün isə elmi potensialın mövcudluğu əsas şərtdir. Siz Azərbaycanda elmin inkişafına cavabdeh olan şəxs kimi Naxçıvanda elmin bugünkü inkişafını necə qiymətləndirirsiniz?***

– Naxçıvanın 90 illik yubileyi ilə bağlı beynəlxalq konfransın keçirildiyi bu günlər Naxçıvanda həm də böyük bir elm bayramına çevrilib. Dünyanın müxtəlif ölkələrindən – ABŞ-dan, Rusiyadan, Türkiyədən gələn alimlər bizim elm adamları ilə birlikdə burada Naxçıvanın muxtariyyətinin tarixi əhəmiyyətini müzakirə etdilər. Bu konfrans Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan üçün böyük bir tarixi hadisədir. Bu həm də burada elmin inkişafının göstəricisidir. Qeyd etmək lazımdır ki, ümumilikdə, Azərbaycan Milli Elmlər Akademiyası sistemində aparılan islahatlar Naxçıvanda elmin inkişafına öz təsirini göstərir. Naxçıvanda elmin inkişafının əsas göstəricisi nədir? Burada elmin inkişafının nəticəsidir ki, bu gün Naxçıvanda Azərbaycan Milli Elmlər Akademiyasının iki həqiqi və 8 müxbir üzvü çalışır. Əminliklə deyə bilərəm ki, bu gün Naxçıvanda nəinki elm inkişaf edir, həm də elmi məktəblər yaranmaqdadır. Bu, böyük əlamətdar bir hadisədir. Çünki elmi məktəblər olmasa, elmi mühit olmasa, elm inkişaf edə bilməz. Naxçıvanda isə belə bir elmi mühit formalaşıb və elmi məktəblər yaranmaqdadır. Bu, özü bir göstəricidir.

***– "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" adlı konfransın plenar iclası zamanı Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ilə Azərbaycan Milli Elmlər Akademiyası arasında Naxçıvan Muxtar Respublikasında elmin inkişaf etdirilməsi üzrə birgə əməkdaşlığa dair saziş imzalandı. Bu əməkdaşlıq sazişi Naxçıvan elminə nə qazandıracaq? Hansı istiqamətlərdə yeniliklər olacaq?***

– AMEA müxtəlif elmi istiqamətlərdə – humanitar, təbiət, yer elmləri istiqamətində Naxçıvan Bölməsinə köməkliklər göstərəcək. Məsələn, biz düşünürük ki, fəlsəfə doktorlarının hazırlanması istiqamətində Naxçıvanda yerlərin sayı bir qədər də artırılmalıdır. Onların elmi rəhbərləri Naxçıvanın elmi problemlərindən doğan mövzular üzrə onları hazırlamalıdırlar. Elmi praktika ilə uzlaşdırıb praktik elmin əhəmiyyətini yüksəltməliyik. Digər tərəfdən biz AMEA-nın Naxçıvan Bölməsinə beynəlxalq əlaqələrini genişləndirməsi üçün şərait yaratmağa hazırıq. Doğrudur, Naxçıvanın elm və təhsil sahələrində müxtəlif xarici ölkələrlə əlaqələri mövcuddur, bu istiqamətdə işlər aparılıb. Biz bilirik ki, Polşa, Rusiya, İran, Türkiyə ilə belə əlaqələr mövcuddur. Lakin hesab edirəm ki, bu əlaqələr daha da genişlənməlidir və bu istiqamətdə biz Naxçıvan Bölməsinə bütün imkanları yaratmağa çalışacağıq.

***– Son olaraq bir məsələ ilə bağlı fikrinizi öyrənmək istərdik. Məlumdur ki, cəmiyyətin inkişafı ilə elmin inkişafı vəhdət təşkil edir və bir-birinə qarşılıqlı təsir göstərməlidir. Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən inkişaf strategiyasının nəticəsidir ki, Azərbaycanın ucqar bir kəndində, Ağbulaq kəndində beynəlxalq konfrans keçirildi. Bu həm də Naxçıvanda gedən proseslərin, müəyyənləşdirilən strategiyanın uğurlu icrasının göstəricisidir. Siz bir elm xadimi olaraq Naxçıvanın bugünkü inkişafı barədə nə deyə bilərsiniz?***

– Mən çox məmnunam, çox şadam ki, Azərbaycanımızın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası günü-gündən gözəlləşir, inkişaf edir. Mən konfransın plenar iclasında da qeyd etdim ki, bir zamanlar biz dünyanın inkişaf etmiş ölkələrindəki, Avropa ölkələrindəki inkişafa, səliqə-sahmana, gözəlliyə qibtə edirdik. Oradakı yollardan, binalardan, insanların yaşayışından, inkişafından heyranlıqla danışırdıq. Bu gün isə Naxçıvan bu inkişafa, bu tərəqqiyə nail olubdur.

✍ **Elnur KƏLBİZADƏ**

***İyul ayının 4-də plenar iclasla başlayan Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" mövzusundakı Beynəlxalq Konfrans iyulun 5-də öz işini bölmə iclasları ilə davam etdirib.***

# "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" mövzusunda Beynəlxalq Konfrans başa çatıb



Ağbulaq kənd məktəbində müxtəlif sahələrə uyğun olaraq, 5 bölmə üzrə keçirilən iclaslarda muxtar respublikanın tarixinə, coğrafiyasına dair məruzələr dinlənilib, ictimai-siyasi, sosial-iqtisadi, mədəni sahələrdə əldə olunan nailiyyətlər, muxtariyyətin əldə edilməsi zərurəti, onun qorunub saxlanması əhəmiyyəti barədə müzakirələr aparılıb.

Qeyd edək ki, bölmə iclaslarına AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, AMEA-nın müxbir üzvləri, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini Qadir Qədirzadə, Qədim dövr arxeologiyası şöbəsinin müdiri Vəli Baxşəliyev və Naxçıvan Dövlət Universitetinin professoru Asif Şirəliyev sədrlik ediblər.

Bölmə iclasları başa çatdıqdan sonra konfrans iştirakçıları AMEA Naxçıvan Bölməsinin Nəbatat bağı ilə tanış olublar. Qonaqlara burada qorunub saxlanan Naxçıvan florasının qiymətli nümunələri, o cümlədən müxtəlif iqlim şəraitlərinə xas olan nadir bitkilər barədə ətraflı məlumat verilib.

Konfrans iştirakçıları Naxçıvan şəhərində ümummilli lider Heydər Əliyevin əzəmətlə ucalan abidəsini ziyarət edib, abidə önünə tər güllər düzüblər. Sonra Heydər Əliyev Muzeyi ilə tanışlıq olub. Muzeydə ulu öndərin mənalı ömür yolunu, zəngin siyasi irsini özündə əks etdirən eksponatlar barədə elm adamlarına məlumat verilib.

Daha sonra səfər Naxçıvanın mədəni-tarixi abidələri və gəzməli yerləri ilə tanışlıqla davam etdirilib. Konfrans iştirakçıları "Xan Sarayı" Dövlət Tarix Memarlıq Muzeyi, Nuh Peyğəmbərin məzarüstü türbəsi, Naxçıvan Biznes Mərkəzi ilə tanış olublar. Biznes Mərkəzində Naxçıvanın son illərdə əldə etdiyi iqtisadi uğurlar barədə məlumat verilib. Naxçıvanda istehsal edilən müxtəlif sənaye, kənd təsərrüfatı məhsulları qonaqlara təqdim edilib.

Bununla da, Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" mövzusundakı Beynəlxalq Konfrans başa çatıb.

**Xəbərlər şöbəsi**

# Beynəlxalq konfransda ciddi elmi müzakirələr aparılıb

## *Bunu həmsöhbət olduğumuz konfrans iştirakçıları da təsdiqlədilər*

***4-5 iyul 2014-cü il tarixlərdə keçirilən "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" adlı Beynəlxalq Konfrans bir daha sübut etdi ki, Naxçıvanın muxtariyyət əldə etməsi tarixi nailiyyətimizdir. Konfransın işində bu real həqiqət leytmotiv kimi səslənib. Həmsöhbət olduğumuz konfransın xaricdən gəlmiş nümayəndələri də bunu bir daha təsdiq etdilər:***

***İbrahim Ethem ATNUR – Türkiyə Respublikası:*** Naxçıvanın muxtariyyət tarixi çox zəngin məqamlarla dolu olan bir tarixdir. Bu tarixin olduğu kimi öyrənilməsi həm də qardaş Türkiyə Respublikası üçün önəmlidir. Bu cəhətdən də "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" adlı Beynəlxalq Konfransın keçirilməsi tarixə böyük ehtiramın ifadəsidir. Qürur duyuram ki, mən də bu tarixin müəyyən məqamlarını araşdıra bilmişəm. Konfransdan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun əməyimə yüksək qiymət verərək məni "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif etməsi zəhmətimin dəyərləndirilməsini göstərən hadisədir. Bu istiqamətdə araşdırmalarımı gələcəkdə də davam etdirəcəyəm.



***Oleq KUZNETSOV – Rusiya Federasiyası:*** Naxçıvana budəfəki səfərimiz muxtar respublikanın muxtariyyət statusu almasının 90 illiyi ilə əlaqədardır. Əvvəlcədən qeyd edim ki, konfransın yüksək səviyyədə keçirilməsi üçün hər şey yaxşı təşkil olunmuşdu. Mənim konfransda çıxış etdiyim mövzu Moskva və Qars müqavilələrinə görə Naxçıvanın beynəlxalq-hüquqi statusu haqqında idi. Naxçıvanın muxtariyyət statusu 1921-ci ildə imzalanmış bu müqavilələrlə təsbit edilmişdir. Məhz bu status Naxçıvanın bugünkü inkişafının, tərəqqisinin qarantıdır. Düşünürəm ki, Naxçıvanın muxtariyyət statusunu özündə əks etdirən bu müqavilələr tarixi saxtalaşdıranlara da tutarlı cavabdır və həmin müqavilələr təkcə Naxçıvan üçün deyil, bütövlükdə, bölgə üçün əhəmiyyətlidir.



***Nail TAN – Türkiyə Respublikası:*** Mən Ankaradan gəlmişəm. Əvvəlcə onu deyim ki, Naxçıvanın muxtariyyət statusunun qazanılması türk dünyasının dahi oğlu Heydər Əliyevin də dediyi kimi, Naxçıvanın tarixi baxımdan əldə etdiyi ən böyük nailiyyətdir. Bizim üçün sevindiricidir ki, bu cür gözəl bir təbiətin qoynunda Naxçıvanın muxtariyyət statusunun qazanılmasının 90 illiyinə həsr edilmiş bir konfransda iştirak etdik. Mənim mövzum Osmanlı dövründə Naxçıvanla bağlı idarəçilik və elmi münasibətlərə dair qeydlər haqqında idi. Bizim apardığımız tədqiqatlara görə, orta əsrlərdə, xüsusilə 16-cı yüzillikdə Naxçıvandan İstanbula getmiş və Osmanlı dövründə çox mühüm vəzifələrdə işləmiş, mədrəsələrdə dərs demiş, tanınmış bəstəkarlar arasında yer almış naxçıvanlılar var ki, onlar haqqında məlumat verdim. İnanıram ki, bizim ortaq fəaliyyətlərimiz bu sahədə daha çox məlumatların əldə edilməsi ilə nəticələnəcək.





***Yaşar KALAFAT – Türkiyə Respublikası:*** Bizim üçün, Naxçıvan üçün çox əhəmiyyətli bir konfransda iştirak etdik. Naxçıvanın türk ulusu tarixində əhəmiyyətli yeri var. Qədim tarixə, zəngin mədəni ənənələrə malik bu diyarın qorunub saxlanılmasında, bir türk yurdu kimi hərtərəfli inkişaf etməsində onun muxtariyyət statusunun rolu danılmazdır. Bu status üçün naxçıvanlılar qətiyyətli mübarizə aparmışlar. Naxçıvan həm də özünün folklor nümunələrinə görə zəngin bölgədir. Anadolu ilə Naxçıvan arasındakı yaxınlıq folklor nümunələrində də özünü göstərir. İnanıram ki, bu konfrans ortaq biliklərimizi bölüşmək baxımından faydalı olacaq və gələcəkdə müxtəlif sahələr üzrə fəaliyyətimizdə mühüm rol oynayacaqdır.



***Lauren RİSTVET – Amerika Birləşmiş Ştatları:*** Naxçıvanda keçirilən bir neçə belə mötəbər konfranslarda iştirak etmişəm. Və bu konfranslarda müzakirə olunan məsələlər öz aktuallığı ilə həmişə diqqəti çəkib. Qədim Naxçıvanın keçdiyi yol, sovet dönəmində təhrif olunmuş həqiqətlərin üzə çıxarılması, Naxçıvanın əzəli Azərbaycan torpağı olması bu konfransların müzakirə mövzuları olub və hər bir elmi yığıncaqda mühüm elmi nəticələr əldə edilib. Bu baxımdan növbəti konfrans da böyük əhəmiyyətə malikdir. Naxçıvanın muxtariyyətinin 90 illik yubileyi münasibətilə keçirilən konfransda bir sıra məsələlərə aydınlıq gətirildi. Konfrans nümayəndələrinin Naxçıvanın muxtariyyəti ilə bağlı müxtəlif mövzulardakı çıxışları Naxçıvan tarixinin yeni səhifələrinə çevrildi. Bütün bunlar Naxçıvana ərazi iddiaları edən ermənilərə qarşı ən tutarlı cavabdır.



***Emilya HAMMER – Amerika Birləşmiş Ştatları:*** Bir neçə dəfə Naxçıvan Muxtar Respublikasında olmuşam. Tarixi abidələrdə yerli mütəxəssislərlə birlikdə tədqiqatlar aparmışıq. Naxçıvanlılarla sıx əlaqə saxlamağım isə bu yerin insanlarının qonaqpərvərliyi, yurd yerinə bağlılıqları ilə əlaqədardır. Keçirilən konfransda bir daha yəqin etdim ki, naxçıvanlılar öz torpaqlarının hər bir qarışının qədrini bilirlər. Muxtariyyəti özlərinin ən böyük tarixi nailiyyəti hesab etmələri də təbiidir. Məhz muxtariyyətin qazanılması hesabına Naxçıvan bir çox ağır məqamlardan xilas oluna bilib. Konfransda da bu məsələ ətrafında geniş söhbətlər getdi. Təşkilatçılığa gələndə isə onu deməyi vacib sayıram ki, Naxçıvan yüksək səviyyədə keçirilən konfransa çox ciddi hazırlaşmışdı. Bu da tədbirdə iştirak edən alimlər, tədqiqatçılar tərəfindən yüksək dəyərləndirildi.



***Hillari QOPNİK – Amerika Birləşmiş Ştatları:*** Naxçıvanın tarixi ilə bir neçə ildir, maraqlanıram. Bu qədim diyar haqqında əlimdə çoxlu materiallar var. Kəşməkəşli bir yol keçən Naxçıvana olan rəğbətim onunla bağlıdır ki, yurdunuz məğrurdur, düşmən qabağında heç vaxt əyilməyib. İnsanları da əzmkardırlar, öz torpaqlarını qorumağı bacarırlar. 90 ildir ki, muxtariyyətini yaşadan Naxçıvanda keçirilən bu konfransda çox məsələlərə aydınlıq gətirildi. Naxçıvan haqqında olan bilgilərim bir qədər də zənginləşdi. Burada çox ciddi məsələlər müzakirə olundu. Konfransda iştirak edən alimlərin aktual mövzularda çıxışları, müzakirə predmetlərinə obyektiv yanaşma tərzi bəyəniləcək səviyyədə idi. Dəniz səviyyəsindən 1700 metr yüksəklikdə yerləşən Ağbulaq kimi füsunkar bir yaşayış məntəqəsində, düşmənin, necə deyərlər, bir addımlığında yerləşən bir kənddə keçirilən konfransı Naxçıvana ərazi iddiaları sürənlərə mesaj hesab edirəm.



***Susanna FİŞMAN – Amerika Birləşmiş Ştatları:*** Bildiyimə görə, XX əsrin 20-ci illərində Azərbaycan bolşevikləşdirildikdən sonra ölkədə yaranan ictimai-siyasi şərait Naxçıvana muxtariyyət statusu verilməsini zəruri edib. Odur ki, çox qədim tarixə, mühüm coğrafi, siyasi-strateji əhəmiyyətə malik Naxçıvana qarşı mənfur ermənilərin əsassız iddialarının qarşısının alınmasında, bölgənin ərazi toxunulmazlığında 1921-ci ildə imzalanan beynəlxalq Moskva və Qars müqavilələri mühüm əhəmiyyət kəsb edir. 1992-ci ildə dahi şəxsiyyət Heydər Əliyev tərəfindən bu müqavilələrin beynəlxalq səviyyədə yenidən siyasi gündəmə gətirilməsi görkəmli siyasi xadimin Azərbaycan qarşısında ən böyük xidmətlərindən biri hesab edilə bilər. Konfransda da bu barədə geniş danışıldı.

✍ **Səbuhi HƏSƏNOV**

✍ **Muxtar MƏMMƏDOV**

# Naxçıvanda ağır atletika üzrə veteranlar arasında dünya kuboku uğrunda yarış keçirilir





***İyulun 5-də Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyinə həsr olunmuş ağır atletika üzrə veteranlar arasında dünya kuboku uğrunda yarışın açılış mərasimi keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.***

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov çıxış edərək bildirib ki, qədim və zəngin tarixə malik olan Azərbaycanda idman milli-mədəni dəyərlərimizin ayrılmaz hissəsini təşkil edir. Yurdumuzun idman ənənələrinin minillik tarixi, böyük inkişaf yolu vardır. "Hər bir cəmiyyətin həyatında idmanın çox böyük rolu vardır. İdman həm ölkənin şöhrətini ucaldan, həm də insanların fiziki cəhətdən sağlamlığına xidmət edən sahədir", – deyən nazir qeyd edib ki, bu reallığın düzgün dəyərləndirildiyi ölkəmizdə idmanın inkişafı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan idman siyasəti bu gün onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Bildirilib ki, bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da idmanın inkişafı diqqət mərkəzindədir. Muxtar respublika rəhbərinin diqqət və qayğısı sayəsində muxtar respublikada yeni idman infrastrukturları yaradılıb, idmanın maddi-texniki bazası gücləndirilib. Məhz bunun nəticəsidir ki, muxtar respublika idmançıları mötəbər yarışlarda müntəzəm olaraq iştirak edir və Azərbaycanın idman şərəfini layiqincə qoruyurlar.

Qeyd olunub ki, digər idman növləri kimi, ağırlıqqaldırma üzrə idman növünün də muxtar respublikada inkişafı diqqət mərkəzində saxlanılır. Mövcud infrastruktur ağırlıqqaldırma üzrə Azərbaycan yığma komandalarının muxtar respublikada təlim-məşq toplanışı keçmələrinə imkan verir.

Sonra Ümumdünya Veteran Ağır Atletlər Federasiyasının prezidenti Bill Barton çıxış edərək bildirib ki, bu gün Naxçıvanda idman bayramıdır. Çünki dünyanın ən güclü veteran ağır atletləri bura cəmləşiblər. İlk olaraq, yaradılan şəraitə və qonaqlara göstərilən diqqətə görə minnətdarlığımızı bildiririk. Dünya kuboku yarışı idmançıların xatirələrində yaşayacaq və inanıram ki, onlar burda qazandıqları titulu heç vaxt unutmayacaqlar.

Yarışın açılış mərasiminin rəsmi hissəsindən sonra Naxçıvan Dövlət Filarmoniyasının rəsq qrupunun çıxışı və ifa edilən mahnılar tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

23 ölkədən (Azərbaycan, Rusiya, Ukrayna, Almaniya, İsrail, İran, Yaponiya, Belarus, Livan, Qazaxıstan, İsveç, Monqolustan, Yunanıstan, Böyük Britaniya, Özbəkistan, Avstraliya, Hollandiya, İtaliya, Kipr, ABŞ, Belçika, Qırğızıstan və Latviya) 170 veteran ağır atletin mübarizəyə qatıldığı dünya kuboku uğrunda yarışda kişilər və qadınlar 16 çəki dərəcəsində qüvvələrini sınayırlar. Reqlamentə əsasən, çəki dərəcələri ilə yanaşı, iştirakçıların yaş fərqi də nəzərə alınır. Belə ki, yarışda minimum yaş həddi 35 göstərilib. Bununla yanaşı, onların qaldıracağı ağırlıq minimum 30 kiloqram olmalıdır.

Dünya kubokunun ilk günü maraqlı çıxışlarla yadda qalıb. Yaş və çəki baxımından kişilər arasında Vladimir Jilyayev (Azərbaycan), Lev Nikiforov, Mixael Kazadov, Yuri Medvedyev, Efim Freger, Vasili Zubov, Boris Bostanov, Aleksandr Kumey, Aleksey Şekotovski (Rusiya), Suzuki Yukihiro, Kinya Konno (Yaponiya), Teddi Kaplan (İsrail), Kurt Rozenberger (Almaniya), Petro Bazuçenko və Yevqeni Smaqli (Ukrayna) rəqiblərini üstələyərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Qadınlardan isə Sabina Rzayeva, Xatirə Şahverdi (Azərbaycan), Arena Lima, Kunell Korat (Avstraliya), Suzana Perrone (İtaliya), Smit Sandra, Conn Makmannus (Böyük Britaniya), Vera Dolzenkova, Olqa Piriayeva (Rusiya), Tsend Ayuş, Tserendorj Oyunçimeq (Moqolustan), Nina Moqomadeva (Yunanıstan), Deniss Offermann (Kipr) dünya kubokunun sahibləri oldular.



Yarışın ikinci günündə səhnəyə yalnız veteran kişi atletlər çıxıb. 5 yaş qrupu və müxtəlif çəki dərəcələrində atletlərin bir-birindən baxımlı çıxışları tamaşaçıların alqışları ilə qarşılanıb. Kişilərin mübarizəsində Akif Əliyev, Miryasin Ağayev (Azərbaycan), Yan Hinriksen (İsveç), Vitali Tereşko, Mirzamaqommed Amirtanov, Aleksandr Çirkov, Aleksandr Xaritonov, Aleksandr Herasimoviç, Alimoqammed İziyev, Mixail Bezperstoy, Mars Minanqal, Stanislav Kosorukov, Abu Cavadov, İqor Medvedyev, Dmitri Kozemoy (Rusiya), Behruz Behmand, Reza Rudsari, Abdullah Fatemirka, Cəmşid Nejad Mosala, Tağı Sadeqimaryani (İran), Yoiçi Yamada (Yaponiya), Qoran Vukoyeviç (Avstraliya), Old Deqenars (Hollandiya) öz yaş qrupu və çəki dərəcələrində yarışın qalibləri olublar.

Qeyd edək ki, bu gün yarışın son mərhələsi keçiriləcək.

✍ **Ceyhun MƏMMƏDOV**

## Gənclər Ağbulaq İstirahət Mərkəzindədir



***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi Ağbulaq İstirahət Mərkəzində muxtar respublikanın fəal və idmançı gənclərinin 7 günlük istirahət düşərgəsini təşkil edib.***

Dünən düşərgənin açılış mərasimi keçirilib. Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov çıxış edərək bildirib ki, gənclərin düşərgədə vaxtlarının səmərəli təşkil olunması üçün hər cür şərait yaradılıb. Burda gənc fəallar müxtəlif mövzularda diskussiyalar aparacaq, intellektual oyunlarda iştirak edəcək, sosial şəbəkələrdən istifadə qaydaları və bu sahədə aktivliyin təmin edilməsi mövzularında keçiriləcək seminarlarda müzakirələr aparacaqlar.

7-13 iyul tarixləri arasında Ağbulaq İstirahət Mərkəzində bir arada olacaq gənclər düşərgədə "Heydər Əliyev və Azərbaycan gəncliyi", "İdman insanın sağlamlığına və mənəvi kamilliyinə xidmət edir", "Naxçıvanın muxtariyyəti və gənclik" mövzularında keçiriləcək seminarlarda iştirak edəcək, Batabat Astrofizika Rəsədxanasında və Batabat yaylağında, Şahbuz rayon ərazisindəki tarixi yerlərdə olacaqlar. İyulun 11-də isə gənclərin asudə vaxtının və istirahətlərinin maraqlı təşkili məqsədilə Bakı şəhərindən dəvət edilmiş gənc müğənnilər əyləncəli konsert proqramı ilə çıxış edəcəklər. Azərbaycan bədii filmlərinin də nümayiş ediləcəyi düşərgənin açılış mərasimindən sonra iştirakçılara üzərində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin və Yeni Azərbaycan Partiyasının loqosu əks olunmuş köynək, papaq, çanta, qələm, qeydiyyat dəftəri və sinə kartı təqdim olunub.

## Karateçilərimiz Potini fəth etdi

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının yetirmələri uğurlu çıxışlarını beynəlxalq turnirlərdə də davam etdirirlər. Ötən həftə Gürcüstanın Poti şəhərində keçirilən karate-do üzrə 20-ci beynəlxalq turnir Naxçıvan idmançıları üçün yaddaqalan olub. Buna kimi 24-29 iyun tarixlərində Bakıda təlim-məşq toplanışı keçən karateçilərimiz Azərbaycan millisinin heyətində qonşu ölkəyə yollanıblar. 5 ölkə və Gürcüstanın bütün regionlarının mübarizə apardığı turnirdə 250-dən çox idmançı çıxış edib.



14-15 yaşlıların 61 kiloqram çəki dərəcəsində mübarizə aparan karateçimiz Abbas Qasımov keçirdiyi görüşləri qələbə ilə başa vuraraq finala yüksəlib. Həlledici qarşılaşmada onun rəqibi yerli idmançı olub. Maraqlısı odur ki, bu görüşü idarə edən hakimlərin ikisi gürcü, ikisi isə erməni olub. İdmançımızın yüksək səviyyədə döyüşməsinə baxmayaraq, hakimlər qələbəni yerli idmançıya veriblər. Bununla, A. Qasımov beynəlxalq turniri ikinci pillədə başa vurub. Bu yaş qrupunun 61+ kiloqram çəki dərəcəsində Mirpaşa Kərimov həmyerlisinin uğurunu təkrarlayıb. O, finala kimi yüksəlib və son qarşılaşmada rəqibini məğlub edərək turnirin qalibi adını qazanıb.

16-17 yaşlıların mübarizəsində də naxçıvanlı idmançının uğuru diqqətdən qaçmayıb. Belə ki, 84+ çəki dərəcəsində tatami üzərinə çıxan Mircavid Seyidov keçirdiyi 3 görüşün hamısında qələbə qazanaraq fəxri kürsünün ən yüksək zirvəsinə qalxıb.

İdmançılarımızın uğurları bununla kifayətlənməyib. Döyüşlərdən sonra hər bir idmançının nümunəvi çıxışları olub ki, Naxçıvan karateçiləri bu mərhələdə də öz bacarıqlarını göstəriblər və tamaşaçıların böyük alqışları ilə qarşılanıblar.

Sonda fərqlənən idmançılarımıza medal, diplom və kubok təqdim olunub.

Qeyd edək ki, bu turnirə Azərbaycan millisi 20 idmançı ilə yollanmışdı ki, onlardan üçü Naxçıvan Muxtar Respublikasını təmsil edirdi. Müqayisə üçün nəzərinizə çatdıraq ki, naxçıvanlı karateçilərin üçü də fərqləndiyi halda, millimizin digər 17 üzvündən yalnız üçü mükafatçılar sırasına düşüb.

✍ **C.MƏMMƏDOV**

## Azərbaycan Respublikası Təhsil Nazirliyi
## Naxçıvan Dövlət Universiteti
### *2014-2015-ci tədris ilində aşağıdakı ixtisaslar üzrə əlavə təhsil almaq üçün qiyabi şöbəyə tələbə qəbulu elan edir*

***-Tarix müəllimliyi***
***-Azərbaycan dili və ədəbiyyat müəllimliyi***
***-Riyaziyyat və informatika müəllimliyi***
***-Biologiya müəllimliyi***
***-Kitabxanaçılıq və informasiya***
***-Yerüstü nəqliyyat vasitələrinin mühəndisliyi***
***-Beynəlxalq münasibətlər***
***-Xarici dil müəllimliyi (ingilis dili)***
***-Hüquqşünaslıq***
***-Dövlət və bələdiyyə idarəetməsi***
***-Turizm və otelçilik***
***-İqtisadiyyat***
***-Mühasibat uçotu və audit***
***-Musiqişünaslıq***
***-İbtidai sinif müəllimliyi***

Əvvəlki ali təhsili və ya hazırda (1 ildən az olmayaraq) işlədiyi vəzifəsi seçdiyi ixtisasa uyğun gələn şəxslər müvafiq qaydaya əsasən, uyğun ixtisaslar üzrə müsabiqədə iştirak edə bilərlər. Əlavə ali təhsil almaq istəyən şəxslər aşağıdakı sənədləri təqdim etməlidirlər:

***-rektorun adına ərizə;***
***-ali təhsil haqqında sənədin (diplomun) və qiymət kitabçasından çıxarışın (diploma əlavə) notariusda təsdiq olunmuş surətləri;***
***-3x4 sm ölçüdə 6 ədəd fotoşəkil;***
***-əmək kitabçasının surəti;***
***-sağlamlıq haqqında arayış;***
***-şəxsiyyət vəsiqəsi və diplom şəxsən təqdim olunur.***

Sənədlər 2014-cü il avqust ayının 10-dək hər gün (istirahət günlərindən başqa) saat $10^{00}$-dan $16^{00}$-dək Naxçıvan Dövlət Universitetində qəbul edilir (əsas bina, 2-ci mərtəbə, 207 saylı otaq).

Universitetə sənəd vermiş şəxslərlə müəyyən edilmiş qaydada müsahibə aparılır. Müsahibədən uğurla keçənlər müsabiqə yolu ilə əlavə ali təhsil üzrə tələbələr sırasına qəbul edilirlər. Təhsil haqqı müqavilə əsasında müvafiq ixtisaslar üzrə uyğun qaydada ödənilir.

***Ünvan: Naxçıvan şəhəri, Universitet şəhərciyi.***
***Əsas bina, telefon: 545-45-59***
***Rektorluq***

### *İtmişdir*

Əbilhəsənov Sahib Ənvər oğlunun adına verilmiş MN-0036237 seriya nömrəli zabitin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

### *Allah rəhmət eləsin*

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin Baş direktoru Yasin Səfərov və agentliyin kollektivi iş yoldaşları Mübariz və Hafiz Tağıyevlərə, anaları
**SƏKİNƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Şərq qapısı" qəzetinin kollektivi qələm yoldaşları Elman Məmmədova, anası
**PÜRÜZƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Şərurun səsi" qəzetinin kollektivi qəzetin redaktoru Elman Məmmədova, anası
**PÜRÜZƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri Zəhmət Şahverdiyev və kafedranın əməkdaşlarından Allahverdi Hüseynov, İsmayıl Zeynalov, Xəzər Hüseynov, Nadir Hüseynbəyli iş yoldaşları Sevinc Abbasovaya, atası
**ZAKİRİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Hüseyn Əsgərov, Asim Yadigar, Hüseyn Şəkərəliyev, İbrahim Yusifoğlu və Qafar Qərib Elman Məmmədova, anası
**PÜRÜZƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 4020. Sifariş № 584